# FƏLSƏFƏ

УДК 1.001.8(075)

## SİNERGETİK İDEYALARIN SOSİOHUMANİTAR ELMLƏRƏ ADAPTASİYASI PROBLEMİ

**L.N.NƏZİRZADƏ**
***Bakı Dövlət Universiteti***
***leyla976@mail.ru***

*Məqalə sinergetik paradiqmanın sosial idrakda yaratdığı geniş imkanların və mühüm koqnitiv potensialın təhlilinə həsr olunmuşdur. Burada formalaşmaqda olan yeni elmin – sosial sinergetikanın əsas təşəkkülü istiqamətləri açılır. Bununla əlaqədar olaraq, vətəndaş cəmiyyətinin formalaşmasında, sosial idarəçilik proseslərində, antropoloji problemlərin həllində sinergetikanın qeyri-xəttilik, özünütəşkil və qeyri-müəyyənlik prinsiplərinin roluna xüsusi diqqət yetirilir və sinergetikanın ekoloji və kulturoloji səpkilərinin təhlilinə geniş yer verilir, tarixin dövrləşdirilməsində və qlobal problemlərin həllində onun malik olduğu üstünlüklər əsaslandırılır.*

**Açar sözlər:** sosial sinergetika, sinergetik antropologiya, özünütəşkil, sosial idrak, vətəndaş cəmiyyətinin sinergizmi, sinergetik ekologiya

Bu gün inkişafı özünüinkişaf və özünütəşkil kimi nəzərdən keçirən yeni bir cərəyanın – özünütəşkil fəlsəfəsinin meydana çıxması artıq danılmaz faktdır. Belə fəlsəfənin bir çox kateqoriyaları dialektikanın kateqoriyaları ilə üst-üstə düşür. Bununla belə sinergetik metodoloji yanaşmada bəzi məqamlar tamamilə yeni tərzdə şərh olunur. Bu, xüsusən də inkişaf yollarının variativliyinə, dönməzliyinə aiddir. Sinergetik və dialektik baxışların oxşar və fərqli cəhətləri İ.Dobronravovanın, Q.Ruzavinin əsərlərində kifayət qədər hərtərəfli göstərilmişdir [7; 13; 14].

Təfəkkür tərzinin araşdırılması sinergetika ətrafında gedən fəlsəfi diskussiyaların əsas mövzularından biridir. Dünyanın yeni, qeyri-xətti mənzərəsi və onu əks etdirməyə qadir olan yeni, qeyri-xətti təfəkkür – sinergetik təsəvvürlərdən irəli gələn ən ümumi fəlsəfi-dünyagörüşü nəticələri bunlardan ibarətdir. Belə təfəkkürün ən maraqlı nəticələrindən biri hadisələrin universal

qanunauyğunluğunun özünün şübhə altına alınmasıdır. O, klassik elmi idrakın diqqətindən kənarda qalan təsadüfü, gözlənilməzliyi təsdiq edir.

Qərb elmində qeyri-xətti təkamül problemlərinə ən yeni baxışlardan biri ABŞ filosofu E.Yançın *"özünütəşkil edən kainat"* haqqında təsəvvürləridir. Onun konsepsiyasının əsasında İ.Priqojinin və onun əməkdaşlarının əsərlərində tətbiq olunmuş dissipasiya və dissipativ strukturlar anlayışı durur. Dissipasiya fenomeninin özünü Yanç materiyanın özünütəşkil dəyişikliklərinə qadir olmasının sübutu kimi nəzərdən keçirir və bu prosesləri elementar hissəciklərdən başlayıb sosial strukturlaradək materiyanın bütün mövcudluq səviyyələrində təhlil etməyə cəhd göstərir [16].

Hazırda sinergetikanın yeni metodologiya kimi potensialından bəhs edən əsərlərin sayı durmadan artmaqdadır. Post-qeyri-klassik elm üçün sinergetikanın açdığı imkanlar haqqında danışan E.Knyazeva bildirir ki, qeyri-xəttilik, stoxastiklik, qeyri-müəyyənlik kimi kateqoriyalar müasir elmin cavablandıra bilmədiyi bir sıra suallara, məsələn, "tarix haraya axır?", "dünyanın gələcək quruluşu neçə olmalıdır?" suallarına cavab verir [9, 81-82]. Buradan da aydın olur ki, onun əhatə etdiyi məsələlər məkanı kifayət qədər genişdir və özünün qloballığı ilə fərqlənir. Doğrudur, onların həlli bir çox cəhətdən gələcək tədqiqatların öhdəsinə düşür, lakin bu məsələləri gündəmə gətirmək imkanını sinergetika artıq bu gün açır. Sinergizm prinsipi təbii varlığın ən yüksək və spesifik forması olan sosial həyatın araşdırılmasına yönəlməkdədir.

Qeyd olunmalıdır ki, sinergetika təlimi formalaşmağa başladığı dövrdən (XX əsrin 70-ci illərindən), onu cəmiyyətə və sosiohumanitar elmlərə tətbiq edib, etməməyin mümkünlüyü məsələsi çoxsaylı geniş müzakirələrin və mübahisələrin obyekti olmuşdur. Hətta müasir fəlsəfi təlimlərdə də sinergetikanın sosial idrakı potensialını kifayət dərəcədə yüksək qiymətləndirənlərlə yanaşı, onun əleyhdarları da az deyildir. Sonuncu qəbildən olan baxışlar sosial həyatın (buna müvafiq olaraq onu öyrənən elmlərin də) özünəməxsusluqlarını əsas götürməklə, çox vaxt onları şişirtmə mövqeyində dururlar. Bununla belə, son dövrdə mürəkkəb sistemlər nəzəriyyəsinin cəmiyyətə tətbiqində böyük imkanlara və üstünlüklərə malik olduğunu qəbul edən və onun real istiqamətlərini açıb göstərməyə yönələn elmi araşdırmaların sayı getdikcə çoxalmaqdadır. Müasir dünya və qərb elmində sozügedən istiqamətdə əhəmiyyətli uğurlar əldə olunmuşdur. Elmin inkişafının bu səpkisinə diqqət yetirilməsi müasir cəmiyyət üçün çox zəruri və faydalıdır.

Sinergetikanın sosial yönümünün genişlənməsi meyli fikrimizcə, tamamilə obyektiv və məntiqidir, çünki cəmiyyət öz-özünü təşkil edən mürəkkəb açıq sistemlərin yüksək tipinə məxsus olduğu üçün, burada sinergetikanın əsas prinsiplərinin tətbiqi nəinki mümkündür, hətta zəruridir. Sonuncu məqam bununla izah edilir ki, postneoklassik elmin mərkəzində duran sinergetik paradiqma varlığın digər sahələrində olduğu kimi, cəmiyyətin öyrənilməsində ənənəvi metodoloji yanaşmaların birtərəfliliyi və nöqsanlarını aradan qaldırmaqla, sosial sistemi qeyri-xəttilik və xaotik baxımından hərtərəfli təhlil etmək

üçün real imkanlar açır. Məsələnin mahiyyəti bundadır ki, cəmiyyət, texniki, mexaniki və hətta kibernetik sistemlərdən prinsipcə fərqlidir. Burada şüura, zəkaya və iradəyə malik olan insanlar və sosial qruplar sistemin altsistemlərini və ünsürlərini təşkil etdiyindən, daha yüksək mürəkkəblik səviyyəsi və rəngarənglik çalarları mövcud olduğundan, qeyri-xəttilik, "qeyri-müəyyənlik onlar ilə şərtlənən qeyri-stabillik (bu anlayış ictimai-siyasi mənada deyil, özünütəşkil prosesinin zəruri tərəfi kimi götürülür) meylləri daha çox yer tutur. Odur ki, sistemlərin digər tiplərinin və növlərinin öyrənilməsində səmərəli görünən kəmiyyət metodları cəmiyyətşünaslıqda onun obyektini kifayət qədər hərtərəfli əhatə etməyə qadir deyildir. Cəmiyyət fövqəlmürəkkəb humanistik sistem" (Lütfi Zadə) olduğundan, onun fəaliyyəti və davranışını hərtərəfli, dəqiq və adekvat təsvir edə bilən paradiqmaya kəskin ehtiyac yaranır ki, bu funksiyanı sinergetik metodologiya yerinə yetirməyə israrlıdır. Bu həqiqətin dərk olunması nəticəsidir ki, son illərdə sinergetika təliminin bilavasitə cəmiyyətdəki prosesləri öyrənməklə məşğul olan xüsusi səpkisi – sosial sinergetika təşəkkül tapıb, inkişaf etməkdədir.

Müasir dövrdə ümumilikdə elmi idrak prosesində olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan sosial epistemologiyada da metodoloji transformasiya baş verir, ənənəvi marksist yanaşmanın məhdudluqları aradan qaldırılır, postneoklassik təmələ arxalanan elmlərarası paradiqmalar və metodoloji plüralizm tədricən geniş miqyasda tətbiq olunur. Bütün bunlar dəqiq və humanitar elmlərin sintezinə şərait yaradan sinergetik yanaşma mövqeyindən ayrılmazdır. Hazırda dünya və qərb elmində həmin istiqamətdə qazanılmış nailiyyətlərə arxalanmaqla və dərindən öyrənməklə Azərbaycanda milli müstəqil dövlət quruculuğunun çoxtərəfli vəzifələrinin həllində onlardan istifadə olunması imkanları və perspektivlərini nəzərdən keçirmək tələbatı yaranmışdır.

Müasir dövrdə ölkəmizin qarşısında duran əsas strateji məqsədlərin – vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşması proseslərinin elmi, metodoloji və nəzəri əsaslarının işlənib hazırlanmasında sinergetik yanaşma paradiqması əvəzsiz rol oynayır. Bu, hər şeydən əvvəl onunla şərtlənir ki, öz təbiəti və mahiyyəti etibarilə vətəndaş cəmiyyəti, ictimai həyatın və sosial qaydaların öz-özünü təşkil edən xüsusiyyətlərinə nəinki zidd deyildir, əksinə bir çox cəhətdən onlara əsaslanır. Belə ki, ictimai proseslərin qanunların aliliyinə və vətəndaşların azadlığına arxalanan sərbəst inkişafı, həmin cəmiyyətin təməl xarakterli müqəddəm şərtləri olmaqla, sinergizmin qeyri-xəttilik, açıqlıq və digər əsas prinsipləri ilə vəhdət təşkil edir və onlardan ayrılmazdır. Sərbəst rəqabəti və normal bazar münasibətləri mexanizmlərinin fəaliyyətini nəzərdə tutan bu cəmiyyət, insan varlığının hərtərəfli inkişafı, şəxsiyyətin özünüifadə və özünütəsdiq imkanları və bütövlükdə yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün ən əlverişli şərait yaradır. Bu məqam mürəkkəb sistemlərin təşkili nəzəriyyəsinin ayrılmaz tərkib hissəsi olan sinergetik antropologiyanın tələbləri və prinsipləri ilə həmahəng səslənir. Deyilənlərdən əlavə, insanın özünütəşkil edən mürəkkəb sistem kimi öyrənilməsi ona müxtəlif elmlər tərə-

findən ənənəvi yanaşmada özünü göstərən birtərəfliliyi aradan qaldıraraq, onu vahid və bütöv vəhdət halında götürməyə, mürəkkəb humanistik sistem kimi mənalandırmağa real şərait yaradır. Sinergetik paradiqma insanın bütün həyatını fasiləsiz surətdə davam edən bifurkasiyalar silsiləsi kimi götürməklə, onun keçdiyi əsas mərhələləri düzgün müəyyənləşdirmək və onların hər birinin keyfiyyət özünəməxsusluğunu, habelə digərləri ilə ümumi və oxşar cəhətlərini dəqiqləşdirmək baxımından çox önəmlidir. Spesifik insan varlığının hüdudsuz potensialını şərtləndirən təbii, iqtisadi, sosial, mədəni, mənəvi və psixoloji determinantlarının çoxsəviyyəli və iyerarxik qaynaqlarının aşkara çıxarmaq qüdrəti də (özü də təkcə rasional pillədə deyil, həm də irrasional və intuitiv səviyyədə) sinergetik yanaşmanın danılmaz üstünlüklərindən hesab edilməlidir.

Bu baxımdan ilk dəfə Lütfizadənin elmə gətirdiyi "fövqəlmürəkkəb humanistik sistem" anlayışı daha böyük maraq kəsb edir. O, texniki, mexaniki sistemlərdən fərqli olaraq, insan amilinin iştirakı məsələsində, sistemin davranışında qeyri-müəyyənlik və qeyri-sabitliyin hədsiz çoxalması ilə səciyyələnən sistemləri humanistik sistem adlandırırdı: "Mənim fikrimə görə, adi kəmiyyət metodları humanist sistemlər üçün yararsızdır, o cümlədən, bütün mürəkəb sistemlər üçün bu, məqbul deyil... Humanist sistemlər biz elə sistemə deyirik ki, onların davranışına insanın mühakimə, təfəkkür və emosiyaları çox güclü təsir göstərir. Bu sistemlərə misal olaraq siyasi, hüquqi, iqtisadi, ümumtəhsil və s. göstərmək olar. İnsan özü və onun təfəkkür prosesləri də mürəkkəb humanist sistem kimi qəbul edilə bilər" [7, 9]. İnsanı humanist sinergetik sistem kimi nəzərdən keçirən T.Allahyarova da yazır: "belə sistemlər mövcud olmaq üçün daim maddə, enerji və informasiya mübadiləsində olur, fasiləsiz dəyişən mühitdə qeyri-sabit tarazlığı təmin edirlər... Həyat ontoloji bifurkasiyadır. Özünütəşkil permanent ekstremum vəziyyətidir... Müasir insanın həyatı permanent (fasiləsiz) bifurkasiya və ekstremum xarakterli olması ilə fərqlənir. Necə deyərlər, 100 il əvvəl olduğu kimi, cəmiyyət artıq insana "rahat" inersiyalı həyat sürməyə imkan vermir" [1, 40-41]. Buna görə də insan kapitalı konsepsiyasının müəyyən edilməsi və praktiki tətbiqi hazırda ictimai elmin ən vacib məsələlərindən biridir.

Postqeyri-klassik elmin qarşısında duran antropoloji problemlərin həlli kontekstində *antropoloji sinergetika* cərəyanı daha perspektivlidir. Bu istiqamətdə V.Arşinovun, Y.Svirskinin, Y.Danilovun, V.Tarasenkonun tədqiqatları mühüm əhəmiyyətə malikdir. Onlar sinergetika ideyalarının müasir antropologiyanın qarşısında duran problemlərin həllində geniş imkanlarını araşdıran əsərlər yazmışlar [3; 4; 5]. Məsələn, V.Tarasenko özünütəşkil ideyalarından İnternet şəbəkəsini kommunikativ mühit kimi təsvir etmək üçün istifadə edir. Müəllifin fikrinə görə, bu mühitdə cərəyan edən özünütəşkil prosesləri spontan nizama, *insanın yaşayış mühitinin məkan-zaman bütövlüyünün* strukturlaşmasına gətirir.

Sinergetik paradiqmanın sosial idrakı baxımdan böyük potensiala malik olduğu müasir cəmiyyətdə idarəçilik elminin inkişafında və real idarəçilik proseslərinin təşkilinin səmərəliliyinin artırılmasında daha aydın görünür. Sosial

proseslərin idarə olunmasının marksizmə arxalanan metodoloji əsasları, cəmiyyətdə mövcud olan bütün sosial qrupların, etniki birliklərin və fərdlərin yaradıcı mahiyyəti və təşəbbüskarlığının tam dolğunluğu ilə reallaşdırılmasını təmin edə bilməmişdir. Bu təlim sosial idarəçilikdə zorakılığı və dağıdıcılığı əsas götürür, yalnız fəhlə sinfi və kəndlilərin idarəçilik proseslərinə geniş miqyasda cəlb olunmasını nəzəri cəhətdən əsaslandırırdı. Beləliklə də, cəmiyyətdə sosial təbəqələrin və fərdlərin malik olduğu çoxtərəfli və praktiki olaraq tükənməz xarakter daşıyan nəhəng özünütənzimetmə və özünüifadə etmə qüdrətinə, onların coşqun təşəbbüskarlığına lazımi diqqət yetirilmirdi. Ondan fərqli olaraq sosial sinergetik yanaşma ictimai həyatın hər bir sferasına məxsus olan spesifikliyi nəzərə almaqla, cəmiyyətdəki bütün sosial subyektlərin mənafe müxtəlifliyini əlaqələndirməyə və bir-birilə uzlaşdırmağa imkanlar yaradır. Yeni paradiqma sosial qüvvələr arasında qarşıdurmaya deyil, cəmiyyətdaxili dözümlülüyə (tolerantlığa), hər bir insanın öz bilik və bacarığını azad surətdə reallaşdırmasına şərait yaratmağa, bütün vətəndaşların qarşılıqlı hörmət və əməkdaşlığına, ictimai həmrəyliyinə, şəxsiyyətin hərtərəfli fəallığına, mənəvi zənginləşməsinə və məsuliyyətinə əsaslanır. Qeyd olunan keyfiyyətlərə malik olduğundan, sinergetik təfəkkür üsulu müasir cəmiyyətdə gedən demokratikləşmə proseslərini nəzəri cəhətdən əsaslandırır və onların məqsədyönlü şüurlu tənzim olunmasını optimal istiqamətə yönəldir.

Sinergetik paradiqma sosial idrakın məntiqi əsaslarında çox mühüm yeniliklər yaradır. Onun təməl prinsiplərindən biri olan qeyri-səlislik, humanitar elmlərin məntiqi əsaslarında sözün əsl mənasında çevriliş əmələ gətirir. Ənənəvi (klassik) məntiqin yalnız ikili qiymət vermə (doğru və ya yalan), bu günkü sosial reallığın məntiqi refleksiyası baxımından öz kasadlığını getdikcə daha aydın büruzə verir. Fövqəlmürəkkəb gerçəklik olan cəmiyyətin məntiqi təfəkkürdə adekvat mənalandırılmasında müasir dövrün görkəmli riyaziyyatçısı və məntiqçisi olan Lütfi Zadənin qeyri-səlis çoxluqlar nəzəriyyəsi müstəsna əhəmiyyət kəsb edir. Burada qiymətləndirmənin qeyri-müəyyənlik meyarı və linqvistik dəyişən əsasında aparılması, cəmiyyətdə baş verən son dərəcə rəngarəng hadisə və prosesləri məntiqi təfəkkürdə hərtərəfli və dolğun əhatə etmək iqtidarındadır.

Sinergetikanın sosial idrakı potensialını araşdırarkən, onun müasir dövrün ən ağrılı problemlərindən olan ekoloji böhranın nəzəri mənalandırılması və həll edilməsi sahəsində yaratdığı üstünlüklər də diqqət mərkəzində saxlanılmalıdır. Özünütəşkil paradiqmasının xüsusi səpkisi olan sinergetik ekologiya cəmiyyət – təbiət sisteminin çoxtərəfli əlaqə və münasibətlərini adekvat anlamağa, burada qarşıdurmanın deyil, harmonik vəhdətin əsas götürülməsini tələb edir. Bu yanaşma ekosistemin fraqmentar mənalandırılmasını, ona yalnız praqmatik baxımdan yanaşılmasını yetərli hesab etmir, təbiət ilə cəmiyyət arasındakı münasibətlərin noosfera prinsipləri üzrə qurulmasında digər şərtlər ilə yanaşı, insanın dünyagörüşünün, burada təbiət üçün məsuliyyətin artırılması istiqamətində dəyişdirilməsini diqqət mərkəzinə çəkir.

Qeyri-xətti təhlil ideyalarını dünya miqyaslı qlobal sistemlərdə tətbiq edən İmmanuil Vallerstayn, ümumdünya inkişafının qanunauyğunluqlarına dair çox maraqlı nəticələrə gəlir. Onun təsəvvürlərinin təməlini tsiklik (məkan-zaman) özünütəşkil modelləri təşkil edir. Sosial idrakın bu cərəyanını marksizmin özünəməxsus versiyası kimi, yəni Priqojinin açıq sistemlərin dinamikası haqqında təsəvvürləri ilə zənginləşdirilmiş versiyası kimi qiymətləndirmək olar. Burada da əsas iştirakçılar siniflər hesab olunur, lakin tarixin subyekti onlar deyildir. Həmin təlimə görə tarixi burada iştirak edən insanlar yaratmırlar, onlar öz-özünü təşkil edən və vüsət alan hadisələrdə iştirak etmək məcburiyyətindədirlər. Məhz həmin gözə görünməyən əl hadisələri müvafiq tarixi tsikllərə yönəldir [6].

Postqeyri-klassik elmin metodoloji təməli kimi sinergetik paradiqma tarix elminə də daxil olmaqdadır. Son illər ədəbiyyatda sivilizasiyanın dinamikasına, tarixin dövrləşdirilməsinə sivilizasiya və formasiya yanaşmalarına çox diqqət yetirilir [2]. Birinci yanaşmanın tərəfdarları (N.Danilevski, O.Şpenqler, A.Toynbi) hesab edirlər ki, ictimai inkişafın əsasını onların sivilizasiya adlandırdıqları sosiomədəni tamlıqlar təşkil edir. Bu sivilizasiyalardan hər birinin öz inkişaf tsikli var. K.Marksdan və F. Engelsdən gələn formasiya yanaşması isə, ictimai-iqtisadi formasiyalar ideyasına köklənir. Tarixin qanunauyğunluqlarına olan bu iki baxış tamamilə fərqli futuroloji konsepsiyaları formalaşdırır, sivilizasiyanın gələcəyi ilə bağlı müxtəlif proqnozları əsaslandırır. Bu mənada "gələcək sivilizasiyaların toqquşması ilə bağlı olacaqdır" deyən S.Hantinqtonun vədləri daha kəskin diskussiyalara səbəb olmuşdur [15].

Sinergetik metodologiya sözügedən problemin həllinə də mühüm töhfə verməkdədir. Belə ki, onun əsasında duran qeyri-xətti inkişaf ideyalarından faydalanmaqla, "əvvəla, sivilizasiya və formasiya yanaşmalarının sintezini təmin etmək; ikincisi, insanı onun təbii və sosial şəraitlə vəhdətdə təhlil etmək; üçüncüsü, qərb və şərq ənənələrinin hər birinin məhdudluğunu aradan qaldırmaqla onları birləşdirmək imkanını əldə etmiş oluruq" [10, 98].

Sinergetik paradiqmanın məhsuldarlığı kulturoloji təhlil sferasında da özünü büruzə verir. Vaxtilə Y.Lotman mədəni məkanda dinamik prosesləri izah etmək üçün sinergetik anlayışlara əl atmışdı. Bu halda özünütəşkil prosesləri ilk növbədə mənayaratma sferasında baş verən proseslər kimi nəzərdən keçirilirdi. Lotmanın fikrinə görə, hər bir mədəniyyət öz inkişafında hələ vüsət almamış məna məkanın alışmasının baş verdiyi bifurkasiya nöqtəsindən keçir. Gələcək inkişaf yollarının hamısı potensial olaraq bu məkanda özünə yer almış olur. Tədqiqatçı burada özünütəşkil prosesləri üçün çox əhəmiyyətli olan aşağıdakı məqamları qeyd edir: mədəni inkişaf yollarından birinin seçimi nə səbəb-nəticə əlaqələri, nə də ehtimal prinsipi ilə müəyyən olunur, çünki bifurkasiya partlayışı anında bu mexanizmlərin arası kəsilir..."Gələcəyin seçimi təsadüf kimi realizə olunur... Sistemin partlayışı nəticəsində təsadüfən gələcək hərəkət imkanlarının mövcud olması cəlb olunmuş istənilən elementi

hakim element edə bilir. Gələcək hərəkəti də elə həmin bu element təyin edəcəkdir" [11, 28-29].

Yaradıcılıq, kommunikasiya, koqnitiv proseslərin mexanizmləri problemlərinin həllinə qoşulan sinergetikanın metodoloji təcrübəsi psixoloji idrak sferasına da daxil olur. Psixoloji yönəlişli özünütəşkil konsepsiyaları E.Knyazeva və S. Kurdyumovun, V.Krılovun, O.Mitina və V.Petrenkonun, E.Qoryaçkinanın əsərlərində inkişaf etdirilir. Məsələn, O.Mitina və V.Petrenko hesab edirlər ki, *semantik məkanların təhlilində özünütəşkil ideyaları çox səmərəli ola bilər:* "Düzdür, biz hamımız vahid fiziki məkanda yaşayırıq, amma müxtəlif mentalitetə malik olan insanlar sanki müxtəlif aksioma və səbəb-nəticə qanunları olan müxtəlif aləmlərdə yaşayır" [12].

Yuxarıda apardığımız təhlilə yekun vuraraq qeyd etmək istərdik ki, sinergetikanın mürəkkəb sistemlərin özünütəşkil prinsipləri, inkişafın qeyri-xəttiliyi, çoxvariantlı-lığı, alternativliyi və hesablamalar yolu ilə optimal yolun seçimi və sair ideyaları, sosial proseslərin adekvat nəzəri mənalandırılmasında, onların idarə olunması ilə bağlı yetişmiş problemlərin həllində yeni, qeyri-standart yanaşmaları inkişaf etdirmək baxımından son dərəcə mühüm və aktual rol oynayır.

## ƏDƏBİYYAT


1. Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi. F.e.d....avtoreferat. Bakı, 2007, 53 s.
2. Əhmədli C.T. Cəmiyyət, siyasət, ideologiya // Siyasi biliyin əsasları. Bakı, 1997, 266 s.
3. Аршинов В., Данилов Ю., Тарасенко В. Методология сетевого мышления: феномен самоорганизации // Онтология и эпистемология синергетики. М.: ИФРАН, 1997, с. 109-119.
4. Аршинов В.И., Панченко А.И. Человеческое измерение постнеклассической науки (Научно-аналитический обзор) // Реферативный журнал. Общественные науки за рубежом. Сер. "Философия". М.: 1991, № 5, с. 13-25.
5. Аршинов В.И., Свирский Я.И. От смыслопрочтения к смыслопорождению // Вопросы философии. 1992, №2, с.145–154.
6. Валлерстайн И. Анализ мировых систем: системное видение мирового сообщества // Социология на пороге XXI века: новые направления исследования. М.: Гардарики, 1998, 521с.
7. Добронравова И.С. Становление нелинейного мышления.// Totallogy. Постнекласичні дослідження. К., 1995, с.187–188.
8. Заде Л.А. Основы нового подхода к анализу сложных систем и процессов принятия решения // Математика сегодня. М.: Знание, 1974, 64 с.
9. Князева Е.Н. Одиссея научного разума. Синергетическое видение научного прогресса. М.: Аспект-Пресс, 1995, с.81–82.
10. Ковалев А. Еще раз о формационном и цивилизационном подходах // Общественные науки и современность. 1996, №1, с. 97-104.
11. Лотман Ю. Культура и взрыв. М.: Гнозис, 1992, 272 с.
12. Петренко В.Ф., Митина О.В. Психосемантическое исследование политического менталитета (Россия: 1991-1993). "Общественные науки и современность". 1994, №6, с. 42-54.
13. Рузавин Г.И. Синергетика и диалектическая концепция развития// Философия науки. 1989, №5, с.11-21.

14. Рузавин Г.И. Синергетика и принцип самодвижения материи // Вопросы философии. 1984, №8. с. 39-51.
15. Хантингтон С. Столкновение цивилизаций. М.: Издательский дом АСТ. 2006, 603 с.
16. Янч Е. Самоорганизующаяся Вселенная // Общественные науки и современность. 1999, №1, с. 143-158.

## ПРОБЛЕМА АДАПТАЦИИ СИНЕРГЕТИЧЕСКИХ ИДЕЙ К СОЦИОГУМАНИТАРНЫМ НАУКАМ

**Л.Н.НАЗИРЗАДЕ**

### РЕЗЮМЕ

Статья посвящена анализу широких возможностей и огромного когнитивного потенциала синергетической парадигмы в социальном познании. В ней раскрыты основные направления формирующейся новой науки – социальной синергетики. В этой связи особое внимание уделяется значению роли основных принципов синергетики (нелинейности самоорганизации, неопределенности), в становлении гражданского общества, социальном управлении и антропологии. Обосновываются преимущества синергетического мышления в решении экологических культурологических проблем, а также в периодизации истории.

**Ключевые слова:** социальная синергетика, синергетическая антропология, самоорганизация, социальное познание, синергизм гражданского общества, синергетическая экология

## THE PROBLEM OF ADAPTATION OF SYNERGISTIC IDEAS FOR SOCIAL-HUMANITARIAN SCIENCES

**L.N.NAZIRZADE**

### SUMMARY

This article is devoted to the analysis of opportunities and tremendous cognitive potential synergistic paradigms in social cognition. It discloses principal directions of the emerging new science – Social Synergy. In this regard, special attention is paid to the role of the fundamental principles of synergetics (non-linearity of self-organization, uncertainty) in the development of civil society, social management and anthropology. The benefits of synergy of thinking in solving environmental problems, as well as in the periodization of history are grounded.

**Key words:** social anthropology, synergy, self-organization, social cognition, synergies of civil society, synergy ecology